# Azərbaycan Prezidenti Qarabağın göylərinə də qapı açır

"Aeroport" sözü latın qrupuna aid dillərin əksəriyyətində "göylərin qapısı" kimi tərcümə edilir. Məsələn, ispan dilində "aero" hava, "puerto" qapı deməkdir. Amma dövlət başçısının Füzuli aeroportunu Qarabağın "hava qapısı" adlandırması bu sözün etimologiyası ilə bağlı deyil.

Bu yerdə Səməd Vurğunun misrası yada düşür: "Göylərə baxıram - qapısı bağlı"... 30 ilə yaxın Qarabağın nəinki bütün yolları, həmçinin göyləri də dahi şairimizin dediyi kimi, üzümüzə bağlanmışdı. 30 il "böyük Ermənistan" ideyasını bayraq edib Azərbaycan torpaqlarını işğal altında saxlayan erməni faşistləri bu ərazilərdə bütün beynəlxalq hüquq normalarının ziddinə gedərək qondarma rejim yaratmışdılar. Lakin 44 günlük Vətən müharibəsində ərazilərimiz azad olunduqdan sonra xəstə erməni nasizminin çürük təxəyyülünə söykənib torpaqlarımızda ağalıq etmiş cəlladların sifətini bir daha ovcumuzun içi kimi gördük. Gördük ki, iliyinədək faşizm ideyaları ilə yoluxan erməni millətçiləri hansı mənəviyyatsızlığın, hansı əxlaqsızlığın sahibidirlər. Çünki onlar bu illərdə daş üstündə daş qoymamış, şəhərləri, kəndləri xarabalığa, məscidlərimizi tövləyə çevirmiş, yüzlərlə mədəniyyət abidəmizi talamışlar.

İşğal zamanı onların bacardıqları yalnız səngərlər qazıb istehkamlar qurmaq olmuşdu. Özünü hamıdan qədim, ağıllı və müdrik sayıb dünyanın gözünə kül üfürən erməni nasist liderləri və onun əsarətində yaşmaqlı gəlin kimi dolanan erməni daşnakları bu 30 ildə bir daxma belə, tikməmişlər.

Amma onlar bütün bu əməllərinin bədəlini ödədilər. Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusu ilə 44 günə 30 il qalib kimi lovğalanıb şişən düşməni necə darmadağın etdisə, bu gün də özlərinə gələ bilmirlər. Azərbaycanda isə bütün xalq əl-ələ verib dövlət başçısının rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərdə tikinti-quruculuq işləri görür, infrastruktur layihələri həyata keçirir. Yeri gəlmişkən onu da qeyd edək ki, dost, qardaş ölkələrin aparıcı şirkətləri də bu dirçəliş və quruculuğun iştirakçılarıdır.

Bu gün Qarabağa gedən bütün hava, quru və dəmir yolları Prezident İlham Əliyev təşəbbüsünün və qətiyyətinin təzahürüdür. Götürək inşasına cəmi bir neçə ay öncə başlanmış Füzuli Beynəlxalq Hava Limanını. Ən müasir səviyyədə inşa olunan Qarabağın bu "hava qapısı"nda sentyabr ayının sonuna qədər sərnişin terminalı istismara veriləcək. Bununla da uzunluğu 3000, eni 60 metr olan uçuş-enmə zolağı artıq istismara verilmiş aeroport istənilən tip hava gəmilərini qəbul edə biləcək.

Prezident İlham Əliyevin tapşırığı ilə Füzulidə belə qısa müddətdə bu cür ən müasir standartlara cavab verən beynəlxalq hava limanının inşa olunması, sözün əsl mənasında, misli görünməmiş hadisədir. Həmin hadisənin dəyərini artıran bir amil də belə möhtəşəm layihənin tək olmamasıdır. Bu gün həm də Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı 101 kilometrlik yolun artıq 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınmış, körpülər və yeraltı keçidlər inşa edilmişdir.

Fikir verin, müharibənin qurtarmasından heç bir il də keçməyib. Bu dövr ərzində Azərbaycanın gördüyü işlərin, reallaşdırdığı layihələrin heç mində birini ermənilər işğalın 30 ilində həyata keçirməmişlər. Çünki bilirdilər ki, bu ərazilərdə müvəqqətidirlər, gec, ya tez onları sahiblərinə qaytarmalı olacaqlar. Amma hətta istəsəydilər belə, bacarmayacaqdılar. Tarixən ərazilərində yaşadıqları bütün dövlətlərə xəyanət edən, xarici havadarlarının quluna çevrilən, güclünün nökəri, gücsüzün ağası olanlar qurmağa, yaratmağa qadir deyillər. Bu, sübuta ehtiyacı olmayan erməni gerçəkliyidir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 2 sentyabr.- S.3.